**Bazar, 2 noyabr 1919-cu il, nömrə 311**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 8 səfərül-müzəffər sənə 1338. 2 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## BAKI OBŞESTVENNİ SOBRANİYANIN BÖYÜKLƏR ŞURASI

Dəvət edir üzvləri və namizədləri öz üzvlük qəbzlərini 1919-1920-ci il üçün təzələşdirməyə. Ustavın [nizamnamənin] 9 və 19-cu maddələrinə görə, qəbzlərin təzə olunması həmin noyabr ayının 3-ədək olacaqdır.

*T-291*

## SİRK "MODERN"

Yekşənbə [bazar] günü noyabrın 2-ndə 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Karl Muznik – Zakoroyko; 2-nci: Staroşvili – Kalişeviç; 3-ncü: Boqatıryov – Buyvolov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Sirk naziri [müdiri] Kumo cənablarının benefisi hazırlanır. Böyük proqramma.

*11500*

## ELAN

Azərbaycan dəmiryollarında cari olan tarifələrin təbdili [dəyişdirilməsi] haqqında qanun

1 – Rusiya dövləti qanun və qərardadlar məcmuəsində 12 təşrini-sani 1914-cü sənədə 308-ci nömrə 2869 və 2873-ncü maddələrlə elan edilən sürəti və sərnişin qatarları ilə göndərilən mallardan və həmçinin dəmiryollar ilə gedən sərnişinlərdən alınan müvəqqəti hərbi vergi alınması bu qanunla təbdil edilir.

2 – 1, 2, 3 və 4-cü klas sərnişin və mal müşayiətçilərindən alınan və iyun 1917 sənəyə kimi cari olan əsl tarifələr 25 dəfə artırılır.

Qeyd: Şəhər həvalisində [ətrafında] olan miqdarı artırılır:

A) Bakı ilə Sabunçu arasında:

1-nci klas 6 manata kimi (cari olan 3 m. 20 q. əvəzinə)

2-nci klas 3 manata kimi (cari olan 1 m. 90 q. əvəzinə)

3-ncü klas 1 m. 50 q.-ə kimi (cari olan 1 m. 15 q. əvəzinə)

B) Bakı ilə Suraxanı arasında:

1-nci klas 8 manata kimi (cari olan 4 m. 35 q. əvəzinə)

2-nci klas 4 manata kimi (cari olan 2 m. 40 q. əvəzinə)

3-ncü klas 2 manata kimi (cari olan 1 m. 50 q. əvəzinə)

3 – Sərnişin sürəti qatarları ilə aparılan mallardan alınan tarifələr 1917 sənəsi iyun ayının 15-ə kimə cari olan tarifələr 40 dəfə artırılır.

2 və 3-cü maddəyə qeyd: Sərnişinlərdən sərnişin sürəti qatarla aparılan mal və baqaj tarifələrinin hesablarında 50 qəpiyədək olan qalqılar 50 qəpik və 50 qəpikdən 1 manatadək olanlar 1 manat hesabı ilə nəzərə alınıb hesab ediləcəkdir.

4 – Böyük və kiçik sürəti qatarlarla aparılan mallardan, ümumi və xüsusi alınan və iyun ayının 10-u 1917-nci sənəyə kimi cari olan tarifə 32 dəfə artırılır.

Bu tarifələr istisna olunur: odun aparmaq (31-nci qruppa), palçıq torpaq (38-nci qruppa), daş, qayırılmamış mədən daşları (41-nci qrup) narın və bərk duz (101-nci qr.), meşə malları, taxta və qeyriləri (27/55-nci qr.), kömür (112-nci qr.), tuklar [mineral gübrələr] (111). Bunlara indilikdə cari qiymətlər tətbiq edilir.

5 – Böyük və kiçik sürəti qatarlarla ağ neft və neft emalatı kimi aparılan mallardan alınan və 10 iyun 1917-nci sənəyə kimi cari olan tarifələr 24 dəfə artırılır.

Qeyd:

1) Bütün qatarlardan aparılan malların tarifələrinin artırılması və müvəqqəti hərbi verginin təbdili təşrini-əvvəl (oktyabr) 23-dən etibarən cari ediləcək və ancaq məhəlli münaqilata [yerli daşımalara] aid olacaqdır;

2) Bakı ilə Suraxanı arasında olan tarifə qiymətləri 29 təşrini-əvvəldən cari edilməkdədir.

6 – Sərnişin qiymətləri və bunların artırılmasına dair tarifələr əlahiddə elan ediləcəkdir.

*115*

## GÜRCÜSTANDAKI HƏVADİS

Bu axır günlərdə Gürcüstanda iğtişaş və üsyanlar əmələ gəlir deyə dövran edən şayiələrin əsası olduğunu və bu üsyan hərəkatının nə rəngdə olub, nə kimi məqsədlər təqib etdiyini Gürcüstan hökumətinin dünkü nömrəmizdə dərc etmiş olduğumuz rəsmi təbliğatından anladıq.

Vaqiən [doğrudan da] Gürcüstanda böyük iğtişaş və üsyan hərəkatı varmış və bu hərəkat bolşeviklik rəngində imiş; təqib edilən məqsəd dəxi Gürcüstanı və buna asılı olaraq Azərbaycanı Denikinlə müharibə etməyə, daha doğrusu, Denikini Gürcüstan və Azərbaycan üzərinə saldırmaqla araya bir çaxnaşma törətmək və bununla Moskof bolşeviklərinin əlinə fürsətlər vermək imiş.

Moskof parası və təlimi ilə idarə edilən bu hərəkət, müharibə taktikası məntiqinin hökmüncə caizədd edilən [sayılan] bir üsuldur və bu nöqteyi-nəzərdən bolşeviklərin Denikin arxasında müşkülat törətmək və düşmənlərinin başını qarışdırmaq səyləri hərkəscə anlaşılan və bəyana hacəti olmayan, ayan və aşkar bir manevra icrasına çalışmaqdır. Denikin bolşeviklər arxasında müşkülat törətməyə çalışdığı kimi, bolşeviklər dəxi onun arxasını qarışdırmaq istəyirlər.

Lakin Denikin arxasını təşkil edən Azərbaycan və Gürcüstanda bolşevikvari





iğtişaşlar əmələ gəlməklə və arada bir müharibə vüqusuna [baş verməsinə] səbəbiyyət verməklə Azərbaycan və Gürcüstan əhalisini – ki bu gün hüzur və əmn-asayişə [əmin-amanlıq və asayişə] bərk möhtacdırlar – müxtəlif fəlakətlərə, ənvai [növbənöv] müsibətlərə düçar etmək və bəlkə istiqlallarının məhvini mövcib [məhvinə səbəb] ola biləcək naçar bir vəziyyətə salmaq olar. Bolşeviklər bunu nəzərə almayırlarmı?

Xeyr, almayırlar. Onlar üçün Gürcüstan və Azərbaycanın istiqlalları, əhalilərinin asayiş və istirahəti, məmləkətlərin əmnü amanlığı – bunlar hamısı cəhənnəmə! Təki Moskof bolşeviklərinin işi asanlaşsın.

Bu gün Ukraynada çaylarca qanlar tökülür, minlərcə xanimanlar bərbad edilir; oraların əhaliləri yenicə işıq üzü görüb, təzəcə azad olmuşdular ki, üzərlərinə təkrar qaranlıq çöküb genə əsir olmağa başladılar. İştə bu zülməti yırtıb genə işığa çıxmaq, əsarət zəncirini qırıb genə azad olmaq üçün buraların əhaliləri "Ya istiqlal, ya ölüm!" deyərək qılınca sarılmış və dabrovollar istilasına qarşı qiyama qalxmışdırlar. Əcəba, nədən bunlar azad ikən təkrar əsir oldular ki, indi də qanlarını axıtmağa və xanimanlarını bərbad etməyə vadardılar? Əlbəttə, bolşeviklər intriqası üzərinə. Moskvanı xilas etmək istəyən bolşeviklər, Ukraynanı zor və cəbr ilə “stratejik” bir meydan halına salıb Denikini təhdidə başlarkən, həm özləri məğlub oldular, həm də özgələri rus irticapərəstləri əlinə verdilər. Lakin özləri məğlub olub da qaçıb qurtardılar, amma Ukrayna əhalilərini fəlakətlər içində, müsibətlər qarşısında zəbun və sərnigun [alt-üst olmuş, məhv olmuş] qoydular. Moskvanı xilas edə bildilərmi, bilmədilərmi burası hələ müəyyən deyildir. Amma Ukraynanın istiqlallarını qeyb etdikləri həqiqətdir.

İştə bu oyunu bizim, yəni Azərbaycan ilə Gürcüstanın başında dəxi oynamaq istəyirmişlər.

Azərbaycan və Gürcüstan Denikin ilə müharibədən qorxmayırlar. Əgər Denikin Azərbaycan və ya Gürcüstan üzərinə hücum etmək istərsə, böyük bir müqabilə və müqavimətə düçar olmaqla, korpeşmançılıqdan başqa özgə bir şey qazana bilməz. Fəqət madam ki, üzərimizə hücum və hüququmuza təərrüz [sataşan] və təcavüz edən yoxdur, o halda, təbii, bizim də heç kəslə işimiz olmayacaqdır. Bolşeviklər Azərbaycan və Gürcüstanı Denikin ilə müharibəyə sövq və məcbur edərlərsə, o halda yalnız bir Denikin deyil, bütün Antanta, yəni ingilis, Fransa və Amerika və hələ ola bilsin ki, Ermənistanla dəxi müharibə etmək lazım gəlməklə, istiqlalımız ola bilsin ki, əbədi olaraq əldən getmək təhlükəsinə məruz qalar.

Əcəba, istiqlalımıza Denikin kimi eyni gözlə baxan bolşeviklər yolunda böylə bir divanəvar [dəlicəsinə; ağılsızcasına] fədakarlığımızın nə mənası ola bilər!

* * *

Gürcüstandakı hadisələrin Moskof bolşevikləri əli ilə vüqu bulduğu – rəsmi təbliğatdan anlaşıldığına görə – təhəqqüq etmiş [həqiqiliyi meydana çıxmış] bir keyfiyyətdir. Fəqət bu işdə Denikin agentlərinin dəxi əlaqədar olduğuna

şübhə yoxdur. Azərbaycan və Gürcüstan üzərinə hücum etmək və bu əməlini Avropa qarşısında haqlı göründürmək üçün Denikin istər ki, bu yerlərdə bolşevikvari iğtişaşlar əmələ gəlsin. Ona görə, böylə iğtişaş və üsyanların davam və tövsisi [genişlənməsi] üçün öz agentlərini bolşevik zümrəsinə daxil etdirib, təşviqat və təhrikat yapdıra bilər. Zatən bu zənnin doğru olduğu rəsmi təbliğatdan dəxi anlaşılır. "İdeya" və məfkurə sahibi olan bolşeviklər öz məramlarına yetişmək üçün hər bir vasitəyə təvəssül edirlər [əl atırlar]. Oğruların, quldurların, qatillərin, hər bir cinayət sahibinin əməllərindən istifadəni caiz bilirlər. Müşəvviqlərinin [təşviqatçılarının] şəxsiyyətini təhqiq etmək və sairə bunlarca əbəs yerə vaxt itirməkdir. Böylə olduğu surətdə, Denikin agentləri bunların içinə çox asan vəchlə [yolla] girə bilər və vəzifələrini gözəlcəsinə ifaya müvəffəq ola bilərlər. Bu üzdən, Gürcüstan və Azərbaycanda hər bir bolşeviklik hərəkəti baş verərsə, bundan iki cür təhlükə vüqusu möhtəməl [ehtimal daxilində] olar.

Gürcü camaatının böylə iğtişaş və üsyanlara qarşı göstərmiş olduğu nifrət və gürcü hökumətinin dəxi bu hərəkatı toxdadıb, iğtişaşçıların səy və əməllərini səmərəsiz qoymaqla ibraz etdiyi [göstərdiyi] ciddiyyət, ciddi fəaliyyət son dərəcə şayani-təhsin və səzayi-təqdirdir [alqışlanmağa və təqdir edilməyə layiqdir]. Azərbaycan ilə Gürcüstan bir-birinə hər bir xüsusda və baxüsus [xüsusilə] müqəddəratca o qədər yaxındırlar ki, Gürcüstanın əmnü asayişi Azərbaycanın və Azərbaycanınkı da Gürcüstanın nizam və qaydası vücudu ilə məşrutdur [bağlıdır, şərtlənmişdir].

Məqsədi iğtişaş və üsyan törətmək olan siyasi zabastovkaların [tətillərin] Azərbaycan hökumət[i] əli ilə müdəbbiranə [tədbirli; ağıllı] bir surətdə yatırılmasını Gürcüstan millət və hökuməti məmnuniyyətlə tələqqi etdiyi [qiymətləndirdiyi] kimi, gürcü hökumətinin də bu təhlükəli iğtişaşı dəf və rəf etməsi [uzaqlaşdırması və aradan qaldırması] bizim səmimi xoşnudluğumuzu mövcib olmaya [məmnuniyyətimizə səbəb olmaya] bilməz və hər iki cümhuriyyətin bəqayi-istiqlalı [istiqlalının əbədiliyi] üçün qorxulu olan böylə siyasi çıxışların həm Azərbaycanda, həm Gürcüstanda tam bir müvəffəqiyyətsizliklə nəticələnməsi hər iki cümhuriyyətin vəziyyətini möhkəmləşdirər; şan və heysiyyətini kənardan baxan dost və düşmənlərin nəzərində artırar və istiqlaliyyət[ə] ləyaqətimizi fəzlə olaraq bir qat daha isbat edər.

*Üzeyir Hacıbəyli*

## GÜRCÜSTANDA BOLŞEVİK İXTİLALÇILARI

Gürcüstanda hökumətin təbliğatirəsmiyyəsindən məlum olduğu üzrə, böyük bir bolşevik ixtilalçıları dəstəsi kəşf edilmişdir.

Moskva Sovet hökuməti Ukrayna kimi Zaqafqaziyada da ibrazi-fəaliyyət etməkdən [fəaliyyət göstərməkdən], hər vasitə ilə də olsa kəndisinin böyük düşməni Denikin əleyhində təzə qüvvətlər tapmaqdan əl çəkməyir.

Sovet hökuməti Zaqafqaziya cümhuriyyətlərinə bir tərəfdən notalar verərək Denikin əleyhində onları müharibəyə dəvət eylərkən, digər tərəfdən də kiralanmış agentləri ilə inqilab və ixtilal çıxarmaqdan bir an belə geri durmayır.

İnqilabçı Lenin ilə vətənpərvər Denikin sabiq Rusiyanı diriltmək üçün o qədər həqiqi və fənni [elmi, texniki] bir siyasət və sövqülceyşi [strateji] bir xətti-hərəkət təqib edirlər ki, əməllərində [arzularında] ya qəti bir müvəffəqiyyət, yaxud qəhqəri bir məğlubiyyətə [döyüşə-döyüşə geri çəkilməyə] ancaq bu surətlə vasil olmaq mümkündür.

Burada şayani-təəccüb [təəccüb ediləsi] bir şey yoxdur: İki məchul istiqamət təqib edən və hər birisi ancaq səlamət və müvəffəqiyyətə nail olmağı qayə bilən gəmilər, kürreyi-ərzin yuvarlaq olmasından (?!) istifadə edərək durmadan yollarında davam edirlər.

Birisinin kapitanı nə qədər inzibatla [asayişlə] bərabər, açıq və aydın bir havaya möhtac isə, digərininki də ixtilala, dumanlı və fırtınalı bir üfüqə aşiqdir. Çünki birincisinin gəmisi ələladə vəsaiti-tədafüiyyə [adi müdafiə vasitələri] ilə mücəhhəz [təchiz edilmiş] isə, digərininki də "yel əsdi, su götürdü" fəhvasınca mütəhərrikdir [sözünün mənasına uyğun olaraq hərəkət edir].

İştə, bu iki qüvvət, bəşəriyyət üçün müzirr və möhlik [zərərli və təhlükəli] olan bu iki dərbədər cərəyan şimaldan cənuba, cənubdan qərbə doğru yürüməyə hazırdır.

*"Muradı cümlənin birdir, bütün dünyanı söylətsən."*

Denikini də, Lenini də dinləyiniz, Sovet hökumətini də, Kolçakı da söylədiniz, həpsinin məramı birdir – Rusiyanı qurtarmaq!

Denikin Rusiyası (haşa) [Allah eləməsin] Əqsayi-Şərqdən [Uzaq Şərqdən] şimal və cənuba, Batuma qədər imtidad etdiyi [uzandığı] halda, Lenininki bundan heç də əskik deyildir.

Denikinçilər "təkamüli" bir siyasət ilə bu məmləkətlərdə iddiayi-hüquq edərək, Velikorusiyanın Şərq aləmini udmaq üçün günün birində əqd etdiyi [imzaladığı] "müahidə"lərə [sazişlərə] istinad eylərkən, bolşeviklər də "inqilabi" bir yolla və hər dürlü müahidələrə qırmızı qələm çəkərək yürüyürlər. Xaricdən kim bu girivəyə [girəvəyə; pusquya] düşərsə, vay halına!

İştə, Gürcüstanda bolşeviklərin ilk və bəlkə də, son bir təşəbbüslərinin əsli, amili budur.

Gürcüstanda bolşevik ixtilalçıları bittəb [şübhəsiz] kira ilə tutulmuş ünsürlər olduğu üçün hökumət onları qolaylıqla təhti-təsərrüfünə [əlinə; idarəsi altına] aldı.

Zaqafqaziyada ixtilalcuyanə [ixtilalçı] məqsədlərlə ortaya çıxan cərəyanların verəcəyi zərər ümumi olduğu üçün biz bu vəqəni, təbii, diqqət və əhəmiyyətə almaq istəriz.

Əlbəttə, Gürcüstanda gürcü Məclisi-Müəssisanını [Təsisçilər Məclisini] dağıtmaq və Gürcüstan paytaxtına saldırıb qanı və həyatı bahasına mal olmuş gürcü millətinin istiqlaliyyətinə xatimə çəkmək [son qoymaq] istəyənlər, Azərbaycan və yaxud da deyəlim ki, Ermənistan üçün xeyirli bir məqsəd, hüsn-niyyətlə məmzuc [yoğrulmuş] bir fikir bəsləməzlər.

İstiqlaliyyətə düşmən olanların zəif və yaxud qüvvətli olması cəhətini nəzərə almaq deyil, düşmən olduğu keyfiyyətini hesaba tutmaq lazımdır.

Gürcüstanda ixtilali [ixtilalçı] hərəkata doğru hazırlanan bu macəracuların [avantüristlərin] bəlkə də bir qismi Azərbaycanda dəxi vardır. Hər halda, aşkar bir şey ki, Zaqafqaziya cümhuriyyətlərini Denikin əleyhinə müharibəyə sövq etməyə müvəffəq olammayan Sovet hökuməti başqa və gizli yollarla təşkilatında bərdəvam olaraq bu məqsədini qüvvədən feilə gətirməyə [həyata keçirməyə] çalışır.

Digər tərəfdən Gürcüstanda vüquya gəlmiş [baş vermiş] şu bolşevik hərəkatı, şayani-diqqətdir ki, İmeretiya və Suxum okruqu kimi Gürcüstanla daima ixtilaflı bir halda bulunan məmləkətlərdə başlamış və camaatın qeyri-məmnun sinfindən istifadə etmək istənilmişdir.

İxtilal və inqilabı yapmaq üçün bəhanələr bulmaq asan iş olmasına görə, Gürcüstandakı bolşeviklər də iqtisadi həyatın gərginləşməsini vəsilə [vasitə; bəhanə] edərək əmələlər [fəhlələr] arasında fikri-ixtilalı [ixtilal fikrini] qüvvətlətməyə çalışmışlardır. Necə ki, bizim aramızda da zəif də olsa, bəzən böylə bəhanələr çıxaranlar olduğu kimi.

Şübhəsiz, Gürcüstanın qəlbi yanmış demokratiyası [xalqı] böylə bir atəşə heç bir zaman girmək istəməyəcəyi üçün bolşevik fəaliyyəti də – burada olduğu kimi – səmərəsiz və nəticəsiz qalmışdır.

[Noy] Ramişvili kimi fətanətli [zirək] və zəki bir nazir öz təbliğati-rəsmiyyəsində də qeyd etdiyi vəchlə, bu inqilabcuyanə hərəkatı çoxdan bəri təqib və tədqiq etməkdə olduğu üçün birdənbirə hamısının foyasını [iç üzünü] meydana çıxarmışdır.

İstiqlaliyyət və mövcudiyyəti üçün cəhd edən və bu qayəyə bütün qüvvətini sərf etməkdən çəkinməyən gürcülər, əlbəttə, bir əsr rusluqdan gördüyü təzyiqin nəticəsidir ki, milli və siyasi əməllərini [arzularını] rusluğun bolşevikinə, Denikininə və bütün cahana elan və fəryad edir:

*"Hər ki zəxmi xord əlbəttə fəğani darəd."*

Zaqafqaziya cümhuriyyətlərinin həyat və istiqlaliyyətlərinə sui-qəsd edənlər istər Denikin, istər bolşevik olsun, müsavidir [birdir]. Zaqafqaziya cümhuriyyətləri özlərini müstəqil və azad görməkdən başqa həqiqi bir siyasətə tərəfdar olammayacaqlarını Gürcüstanda bir çıxışa hazırlanıb da tikiş tutmayan bolşeviklər macərası da isbat edər.

*Ə[hməd] H[əmdi Qaraağazadə]*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*25 təşrini-əvvəl [oktyabr] iclası*

İclas doktor Həsən bəy Ağayevin sədarəti və Əhməd Cövdət Pepinovun katibliyi ilə 11 saat 45 dəqiqədə açılır.

Növbədəki məsələnin, Gəncədə Hökumət Bankı şöbəsi güşad etmək [açmaq] barəsində olan qanun layihəsinin 3-cü qiraəti olduğu sədr tərəfindən elan edilməklə bərabər, qanun layihəsi 3-cü qiraətdə oxunaraq qəbul edilir. Sonra Mətbuat Nizamnaməsinin ümumiyyətlə müzakirəsinə keçilir.

(Keçən iclasda bu xüsusda bir neçə natiq uzun-uzadıya nitqlər söyləmiş, vaxt gec olduğundan iclas qapanaraq ümumiyyətlə müzakirələr işbu iclasa təxir edilmişdi.)

**Səməd ağa Ağamalıoğlu** - Keçən iclasda danışan natiqlərə cavab verir və deyir ki: Bunun qorxusu hələ ondandır ki, bu qanun deyil, nizamnamədir. Çünki qanunda çox ola bilər ki, yaxşı fikirlər yazılsın. Lakin onu mövqeyi-icraya yaxşı qoymazlar.

Sonra Nəsib bəyə cavab verərək deyir ki: Bu qanunda fəna bir şey varsa, o da qəzetə müdirlərinin kim olması barəsindədir. Çünki müdirin nə cür olması, onun savadlı və həddi-buluğa yetişməsi kimi şərtlər hürriyyəti-mətbuata ziddir. (!)

**Əliheydər Qarayev** *(bolşevik)* - Uzun bir nitqində keçən kərə söylədiyi sözləri təkrar edir, deyir ki: Mətbuat gərək mütləq sərbəst olsun.

(Əqəliyyətdə [azlıqda] qalan millətlərdən gürcü nümayəndəsi rusca bir nitq söyləyərək o da qanunun bəzi maddələrinin əleyhinə gedir.)

**Məhəmməd Əmin Rəsulzadə** - Burada Mətbuat Qanununun əleyhinə türkcə söylənən sözləri rusca olaraq bəlkə məntiqə daha müvafiq bir tərzdə müdafiə etdilər. Həpsi söylədilər ki, hürriyyəti-mətbuat lazımdır.

Fəqət bir əndazədə buna qanun təyin etmək də icab edər.

İştə, mətbuat qanununu müdafiə edənlər ilə əleyhdarları arasında başlıca fərq bundan ibarətdir. Burada bir adam bulunmaz ki, hürriyyəti-mətbuata zidd olsun və dedilər ki, bir adam da bulunmaz ki, bundan ötrü bir əndazə istəməsin. Burada Qarayevin müdafiə etdiyi hürriyyəti-mətbuat deyil, anarşiyi-mətbuatdır [mətbuat anarxiyasıdır].

Mətbuata bir əndazə və nizam hər halda lazımdır. Bunu istəməyənlər hürriyyəti-mətbuatı deyil, anarşiyi-mətbuatı müdafiə edirlər. Hər kəs bu cür mətbuat tərəfdarı isə, onlar mətbuat müntəsibləri [nümayəndələri] deyillər. Burada danışanlar qanunda hürriyyəti-mətbuata zidd maddələr tapdıqlarından onun əleyhinə səs verəcəklərini və qanunu rədd edəcəklərini söylədilər. Madam ki, anarşiyi-mətbuat tərəfdarı deyillər, o vaxt məntiq icab edərdi ki, qanunu əsasən qəbul edib, sonra maddəbəmaddə müzakirə olunarkən təshih yapaydılar. Fəqət bunu da etmək istəməyirlər. Görünür ki, burada məntiqsizlik var.

Təbiidir ki, müzakirə açılarkən təshih üstündə hər kəs öz nöqteyi-nəzərini söyləyəcəkdi.

İndi gələlim söz hürriyyəti ilə yazı hürriyyəti arasında olan fərqə. Burada sizə bu barədə söz söylərkən, gözəl fəlsəfə dedilər ki, zahirən çox düz gəlirdi. Fəqət batinən mənasız və səfsətə idi. Söz hürriyyəti ilə mətbuat hürriyyəti arasında fərq olmadığı zahirdə öylə görünürsə, fəqət yazı ilə söz arasında fərq həqiqətən böyükdür və çoxdur. Zira hər adam söz söyləyə bilər. Fəqət hər adam yazı yazammaz. Çünki yazını iktisab etmək [əldə etmək] lazımdır. Söz söyləmək insanda təbii bir xislətdir. Yazı isə sonradan qazanılmış bir sənətdir. Söz ilə yazını bərabərləşdirib tənzim etmək olmaz. Yazı yazanlar üçün qanun qoyub tənzim etmək mümkündür. Çünki onlar azdırlar. Fəqət üç milyon bir camaatın söz söyləməsi üçün bir qanun qoymaq qeyri-mümkündür. Bunların aralarında

imkan və qeyri-imkan qədər fərq vardır. Binaənileyh [ona görə] bu, zahirdə məntiqə uyğun və xoş görünürsə də, batinən öylə deyildir.

Şimdi baxalım, bu qanunda nələr var ki, onun hürriyyəti-mətbuat əleyhinə olduğunu söyləyirlər. Qanun istəyirmiş ki, qəzetə yazan şəxs savadlı olsun, yəni qəzetə yazanlar bir şey yazıb anlaya bilsinlər. Bu da hürriyyəti-mətbuat əleyhinə imiş. Sonra digər bir maddə əleyhinə danışdılar ki, yazılan bir fəqərəyə [hadisəyə] rəddiyyə [təkzib] gələrsə, eynən dərc edilsin və idarə tərəfindən həman yazıya qeyd və əlavə olunmasın. Bunun əleyhinə getmək olar, lakin bu maddəyə görə bütün qanunun ziddinə getmək doğru olammaz. Halbuki hökumət müəssisəsi camaat müəssisəsi deyildir. Onu ittiham etdikdə, gərək bitərəf olaraq əfkari-ümumiyyəni [ictimaiyyətin fikrini] də dinləyəsiniz. Mətbuat müddəidir [iddiaçıdır; ittihamçıdır]. İttiham olunan tərəf müddəi-əleyhdir [müttəhimdir]. 3-cü bir tərəf də var ki, o da əfkari-ümumiyyədir. Siz bir tərəfi ittiham etdikdə, gərək bitərəf olan əfkari-ümumiyyəni də dinləyib, sonra bir qərara gələsiniz. Siz müddəi olduğunuz zaman üçüncü tərəf camaata də imkan verməlisiz ki, öz rəyini söyləsin. Madam ki, bunu etməyirsiniz, təshih ya müğalitəkaranə [doğru yaxud yalan] sözlərlə ona imkan verməyirsiniz ki, bitərəf olaraq öz rəyini söyləsin.

Sonra 2-ci nömrədə onun müdafiatını [müdafiələrini] rədd edəcəksiniz. Ediniz, lakin müddəi-əleyhə də imkan veriniz əfkari-ümumiyyə qarşısına bitərəfanə bir surətdə çıxsın. Qanun qətiyyən bitərəf olmalıdır, tərəfli olmamalıdır. Halbuki siz buna razı deyilsiniz, digər bir nöqteyi-nəzəri müdafiə edirsiniz. Bu, o deyil ki, layiheyi-qanuniyyə bütün-bütünə rədd edilsin. Məsələyə əsasla yanaşdıqda, layiheyi-qanuniyyəni rədd etməyə səbəb yoxdur. Burada deyilir ki, müdir savadlı olsun. Əgər bu lazım deyilsə, deyiniz təshih edəlim. Mən bilməyirəm ki, bununla Qarayev deyir ki, Şərq aləmi geri gedəcək, biz Qərbə yavuq getməliyiz. Əcəba Qərbdə öylə bir yer var ki, orada qanun olmasın və yaxud müdir savadsız olsun?

Burada münaqişə olduqda bizim firqəyə töhmət edərək dedilər ki, firqəmizə mənsub hökumət (bilməm hankı hökuməti deyirlər) qəzetələrdən kağız alırmış ki, filan qəzetə çıxmayacaqdır. Bunlar bolşevik və qeyri qəzetələr haqqında olur. Hökumətin beməsləhətən [işin xətri üçün] mətbuatı nizama salmaq üçün qurduğu tədbirdir. Sonra Qarayev qəzetədə yazır ki, Rəisi-vükəla [Baş nazir] başqa yerə getməyir, əhalinin dərdinə qalmayır, onun ehtiyacına yaxından bələd olmayır. Rəisi-vükəla bu məqsədlə Ağdaşa getdikdə, o zaman Qarayev götürüb yazır ki, hökumət rəisi yaylağa gəzməyə getmişdir. Bu növ qanunsuz iş görən mətbuata qarşı hökumət tədbir görər və görür.

(Qarayev yerindən: O tədbir yalnız "Füqəra sədası" üçün idi.)

**Məhəmməd Əmin** - *(davamla)* Xeyr, sizin dediyiniz füqəra sədası deyil, füqəranı iğfal edənlərin [aldadanların] nidasıdır.

Burada iki əsas var: biri mətbuatın idarə və tənzimi haqqında, digəri mətbuatın surəti-nəşri və nəşr olunan əkazib [yalan] və böhtanlara verilən cavablar haqqında. Qeyri yerlərdə də məmləkətin mədəniyyəti nöqteyi-nəzərindən böylə qanunlar tənzim olunur ki, nərədə və hansı mətbəədə nə qədər kitab və qəzetə təb [çap] edilir. Siz bilirsiniz ki, mühüm və tarixi zaman keçiririk. Bu qədər ki, yazıb-pozuruq, əlbəttə, bunlardan hökumətə, yəni təyin olunmuş mətbuat müdirinə birər nüsxə gəlməlidir, ta ki bir-iki sənədən sonra nə yazdığımız və nə zamanlar keçirdiyimiz o övraqdan [yazılardan], tarixi nöqteyi-nəzərdən məlum olsun.

Bir də münaqişə var ki, mahallarda mətbuat işləri uyezdni naçalniklərə [qəza rəislərinə] və valilərə tapşırılır. Doğrudur, onlara tapşırılır, fəqət qapamaq ixtiyarı verilməyir. Onlara haqq verilir ki, müdiriyyətə lazım olan məlumatı toplayıb göndərsinlər. Biz biliriz ki, mətbuat bizim məmləkətdə öylə mütərəqqi olmamış ki, hər yerdə bir mətbuat müdiri təyin edək. Yalnız Şuşada və Gəncədə birər qəzetəmiz vardır. Şəkidə bir də mətbəə var ki, o, ancaq Həsən Dadanovun tənbəki kağızlarını çap edir. Buna görə Şəkidə bir mətbuat müdiri təyin etmək doğru deyildir. Hər halda bu işləri tənzim etmək üçün məhəllində [yerində] hökumət məmurlarına tapşırılır. Bir də məmləkətin maliyyə nöqteyi-nəzərindən, bu doğru deyil. İndi Şuşa şəhərində bir hökumət mətbəəsi var. Orada hökuməti bir qəzetə [bir hökumət qəzeti] nəşr olunur. Onun üçün bir mətbəə müdiri, bir qəzetəyə baxacaq müdir lazım gəlir.

Bu növ bir çox daha qeyri xırda yerlərdə mətbuat müdiriyyətləri əmələ gələcəkdir ki, bu da doğru olammaz. Halbuki Nuxuda olan uyezdni naçalnik və Şuşada olan general-qubernatora verilsə, daha münasib olar. Həmin valilərə və uyezdni naçalniklərə artıq [çox] etiraz edildi ki, mətbuat gərək onların ixtiyarına verilməsin. Halbuki mətbuatın ixtiyarı onlara verilməyir. Onların işi yalnız mətbuatda xilafi-qanun gördükləri bir fəqərə [hadisə; fakt] barəsində yazıb müddəiyi-ümumiyə [prokurora] məlumat verərək, onun nəzərini şu nöqtəyə cəlb edəcəkdir.

Hərgah müddəiyi-ümumi o yazıda bir qüsur görərsə, müdiri-məsulu məhkəməyə cəlb edəcəkdir. Əcəba bununla uyezdni naçalnikə böyük ixtiyarmı verilmişdir? Hər bir özünü azərbaycanlı hesab edən vətəndaşın ixtiyarı vardır ki, müddəiyi-ümumiyə müraciət etsin, məmləkət qanunlarına xilaf hərəkət edən bir şəxsi, bir qəzetəni məhkəməyə cəlb etdirsin. Hər bir vətəndaşın malik olduğu haqqı uyezdni naçalnikə vermiş olsanız nə olar. Bu o demək deyil, uyezdni naçalnik qəzetə müdirlərini məhkəməyə cəlb edəcəkdir. Əgər yazdığında hökumət əsasına toxunacaq bir şey varsa, təbii, müddəiyi-ümumi onu məhkəməyə cəlb edəcəkdir. Əgər yoxsa, onu cırıb atacaqdır. Bununla müdirlərə qəsdən bir təhlükə yoxdur. Fəqət bu gün hər əlinə qələm alan ağzına gəldiyi sözləri yazsa, ziddiyyəti xüsusiyyəti [öz şəxsi problemləri] ilə müsavi [bərabər] tutarsa, iftiralar söyləsə, böylə şeylər, təbii, qəbula keçən işlər deyildir. Bizim Məclisi-Məbusanın üzvləri və siyasi firqələrimiz hürriyyəti-mətbuatı müdafiə edib də onlara sui-istemal [sui-istifadə imkanı] qazandırarsa, bu doğru bir şey olammaz.

Mən xətmi-kalam olaraq onu demək istəyirəm ki, qanun mətbuat aləmində məqbuldur və qəbulunda isə heç bir qorxu yoxdur və qəbulu lazımdır.

**Sədr** - Təklif var ki, müzakirə bitsin.

**Səməd ağa** - Hər zaman Məhəmməd Əmin əfəndinin nitqindən sonra təklif varid [daxil] olur ki, müzakirə bitsin. Bu bizim Parlamanımızda bir adət olmuşdur. Mən təklif edirəm bu adət götürülsün. Müzakirə hələ bitməsin.

**Məhəmməd Əli Rəsulzadə** - Mən öylə bilirəm ki, iki gündür bu barədə bir çox sözlər danışıldı. Bundan sonra danışılacaq sözlər də həman əvvəlkilərin təkrarı olacaq və yaxud bir qədər artırılıb, əskiləcəkdir. Mən təklif edərdim ki, müzakirə qət edilsin [kəsilsin]. 2-ci qiraətində maddəbəmaddə oxunanda hər kəs yenə öz sözünü maddə barəsində deyə bilər.

Sədr təklifi səsə qoyur. Əksəriyyət ilə təklif keçməyir. Müzakirə qət edilməyərək davam edir.

*(Mabədi var)*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqrafı tərəfindən alınmışdır)*

*31 təşrini-əvvəl*

*(Bolşevik xəbərləri)*

### Hərbi əməliyyat

Fin körfəzi səvahili [sahilləri] dairəsində düşmənin hərbi gəmiləri ilə top müsadiməsi [döyüşü] vaqe olmaqdadır. Düşmən gəmiləri atəşimizlə dənizə qovulmuşdur. Atışma əsnasında düşmənin bir gəmisi zədələnmişdir.

Robşi dairəsində - Ciddi vuruşmalar davam edir.

Qatçina dairəsində - Vuruşma ilə tərəfimizdən Qatçinanın 5 fərsəx şimalında olan bir neçə kənd işğal edilmişdir. Yüz nəfər əsir və mitralyoz alınmışdır.

Luj[ski] dairəsində - Bizim qoşunlarımız ciddi yürüşlərlə Luqanın 10 fərsəx məsafəsinə çatmışlardır. Bir neçə hissələrimiz üç günün ərzində vuruşma ilə 50 fərsəxdən yuxarı yol getmişlərdir.

Kiyev və Çerniqov dairələrində bizim müvəffəqiyyətli yürüşümüz davam edir.

Dmitrov, Kromı, Orlov və Yels dairələrində yürüşümüz müvəffəqiyyətli surətdə davam edir.

Voronej dairəsində bizim süvarimizin müsadiməsindən [çarpışmasından] sonra düşməni Zemlyanska atmışdır. Düşmən ricəti [geri çəkilməsi] əsnasında böyük tələfat vermişdir. 50 mitralyoz alınmışdır.

Bobrov dairəsində ciddi vuruşmalar davam edir.

Borisoqlebsk dairəsində - Borisoqlebskdən cənuba və şərqə ciddi vuruşmalar davam edir.

Əlavə alınan məlumata nəzərən, iki alayımızın hissələri Novoxopyorskdan ricət edərkən düşmənin güclü qüvvəsi tərəfindən əhatə edilmişdir. Hissələrimiz bütün ixtiyarlarında olan fişəngləri ata-ata və ölərək düşmənə təslim olmamışlardır. Qəhrəmanənə bir surətdə, əhatə etmiş olan düşməndən süngü ilə özlərinə yol açaraq namuskaranə bir surətdə böylə ağır vəziyyətdən xilas ola bilmişlərdir.





Ust Medved dairəsində Skruş dairəsindən yürüş etməkdəyiz.

### Amerika əyanlarının bəyanatı

Nauen - Amerika əyanlarının bəyanatına görə, Vilson Amerika rəisi-cümhurluğuna bir daha namizədliyini qoymayacaqdır.

### Vəhşət qurbanları

Nauen – Amerika Hərbiyyə Nəzarəti tərəfindən elan edilən statistik məlumatına nəzərən, müharibə əsnasında qətl edilən saldatların ümum miqdarı 7 milyon 50 min 200 nəfərdən ibarətdir.

### Fərarilərin rəvayəti

Yaroslavl – Ağ qvardiya əsarətindən fərar edib gələn yoldaşların dediklərinə görə, bolşevik komissarlarını və onlara tərəfdar olanları Balaxoviç özü güllələyir. Balaxoviç dəstəsinə daxil olmaqdan imtina edənlər edam edilirlər. Balaxoviç maaş verməyir. Hər bir şəhəri işğal etdikdə, Balaxoviç öz çətələrinə 2-3 saat qarət üçün müsaidə verir. Balaxoviç dəstəsi mülkədar uşaqları və sabiq zabitlərdən ibarətdir.

### Ablukadan imtina

Nauen - Fransa radiosu xəbər verir ki, Almaniya hökumətinin Şura Rusiya ablukasında [blokadasında] iştirak etmək təklifinə cavabı Versala vasil olmuşdur. Cavabda deyilir ki, Almaniya hökuməti 5 ilin ərzində abluka dəhşətlərini gördüyü üçün hər hankı tərəfin ablukasında iştirakdan qəti olaraq imtina etməyi lazım və vacib bilir.

### Ümidləri doğrulmayır

Nauen - Əxirən [son günlərdə] İngiltərədən varid olan [gələn] xəbərlərə nəzərən, İngiltərə dövləti, anlaşıldığına görə, Kolçaka müavinət etməyə bir daha mail deyildir.

### İğtişaş

Smolensk - Alınan məlumata nəzərən, Ukraynada Denikin əleyhinə qalxmış olan iğtişaş get-gedə artmaqdadır. Kiyevdə Denikin 10 ay bundan əqdəm [əvvəl] Skoropadskinin olduğu vəziyyətdədir. Kənd əhalisi şəhərə ərzaq götürməyi bilmərrə qət etmişlər [dayandırmışlar]. Şepelin yaxınlığında iğtişaşçılar dəmiryol xəttini təxrib etmişlərdir. Dəmir yol xətti təxrib edildiyindən, əsgəri qatarlar toqquşmuşdurlar. Yüz nəfərdən yuxarı Denikin saldatları tələf olmuşdur.

### Üsyançılar Denikin arxasında

Novozıbkov - Kiyevdə nəşr edilən Ağ qvardiya qəzetələrindən “Veçerniye oqni”nin verdiyi məlumata görə, Yekaterinoslav dəmiryolunda iğtişaşçılar tərəfindən qatarların toqquşmaları vaqe olur.

### Denikin azadlığı

Novozıbkov - Rostovda nəşr edilən Ağ qvardiya qəzetələrində Don atamanının bir əmri dərc edilmişdir. Əmrdə denilir ki, Rostovda çıxmaqda olan “Don” qəzetəsi “Don şəhərində ərazi məsələsinin həlli təşəbbüsatı” ünvanında yazdığı məqalə üçün bağlanır.

### Misirdə qanlı vuruşmalar

Lion – Aleksandriyadan [İskəndəriyyədən] verilən xəbərlərə nəzərən, Misirdə

böyük iğtişaşlar olmuşdur. Polis küçə nümayişlərini qadağan etmək və məscidi bağlamaq istəmişdir. Əhali müqavimət göstərdiyindən, toqquşma əmələ gəlmişdir. Qoşun çağırılıb əhaliyə atəş açılmışdır. Əhalidən 2 nəfər ölmüş və 20 nəfər yaralanan vardır. Polis tərəfindən 3 zabit və 24 acentə yaralanmışlardır.

*(Gürcü Teleqraf Acentəsindən)*

*(İtaliya heyəti xəbərləri)*

**Bolşevik ərkani-hərbinin dərdəst edilməsi**

Londondan bolşevik ərkani-hərbinin [qərərgahının] dərdəst edilməsini [tutulmasını] xəbər verirlər. Trotski qaçmışdır.

**Kronştadtdan gəmilərin çıxması**

Helsinqforsdan [Helsinkidən] xəbər verirlər ki, dün 6 bolşevik gəmiləri Helsinqforsdan çıxmışdırlar.

**Kolçakın yürüşü**

Kolçakın yürüşə başlamasını, bolşevikləri Tobol nəhrinin sol sahilinə sıxışdırmasını Omskdan xəbər verirlər. Onun yürüşü Kostanay tərəfində davam etməkdədir. Burada 35 min bolşeviki əzmişdir.

**İtaliya Ticarət Bankı**

İtaliya Ticarət Bankının şura rəisliyinə sabiq nazirlərdən Krespi təyin edilmişdir.

**Almaniya mətbuatı**

Almaniya Sülh Cəmiyyəti Rusiya ablukası əleyhinə və onun daxili işlərinə müdaxilə edilməsinə izhari-etiraz etmişdir [etirazını bildirmişdir].

**Abluka yüngülləşdirilməsi kafi deyildir**

Almaniya dairələrində ablukanın yüngülləşdirilməsini kafi hesab etməyirlər. Sahil münaqilatına [rabitəsinə] başlanmışdır. Almaniyanın bitərəf dövlətlərlə münasibatının mən'i təbdil edilməmişdir [qadağası dəyişdirilməmişdir].

*(Lion radio mövqifinin [radiostansiyasının] xəbərləri)*

**Yaponiya ilə olan müahidənamənin təsdiqi**

İngiltərə dairələrində Mikadonun Versal Sülh müahidənaməsini [sazişini] gələn ayın əvvələrində təsdiq edəcəyini söyləyirlər.

*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Bolqariyada böhrani-vüzəra**

Stamboliyski başda olmaqla, Bolqariyada yeni kabinə təşkil edilmişdir. Teodorov Bolqariyanın Parisdə olan mürəxxəsləri [nümayəndələri] rəyasətində qalır. Mürəxxəslərin birisi tərəfindən edilən məruzədən anlaşıldığına görə, yeni kabinənin xarici siyasəti sabiq kabinə siyasətindən o qədər kəskin olmayacaqdır. Xariciyyə işləri başında sabiq Rusiyadakı Bolqariya səfiri Macarov durur.

**İspaniya kralının səfəri**

İspaniya kral və kraliçası təşrini-əvvəlin [oktyabrın] 21-də Parisə varid olmuşlardır [getmişlər]. Ayın 22-də Rambuyedə təntənəli bir seyd [ov] olmuşdur.





Ayın 23-də kral, marşal Petenin müşayiəti ilə Verden altında olan müharibə çöllərini tamaşa etmişdir. Ayın 24-də kraliça Londona əzimət edərək [yola düşərək] özünün yövmi-təvvəlüdünü [doğum gününü] qövm-əqrəbaları arasında keçirəcəkdir.

**Cənubi Slovakiyada böhrani-vüzəra**

Axırıncı varid olan [gələn] məlumata görə, Cənubi Slovakiyada yenidən böhrani-vüzəra vaqe olmuşdur [hökumət böhranı meydana çıxmışdır]. Şayiata [şayiələrə] nəzərən, şahzadə naibüs-səltənə [səltənət vəkili] yeni kabinə təşkilini Paşiçə həvalə etmişdir.

**Cəmiyyəti-Əqvam və bitərəf dövlətlər**

Ali Şura bitərəf dövlətləri Cəmiyyəti-Əqvamda [Millətlər Cəmiyyətində] iştirak üçün dəvət etməyi təhti-qərara almışdır.

**Almaniya gəmilərinin verilməsi**

Qeyri-məşru [qanunsuz] surətdə Hollandiyaya satmış olduğu gəmilərin verilməsini Ali Şura Almaniyadan tələb etmişdir.

**Dansiq müstəqil dövlət**

Təntənəli surətdə Dansiqin müstəqil dövlət olduğu elan edilmişdir.

**Serbiya və bolşevizm**

Könüllü orduya daxil olmaq üçün Odessaya bir dəstə Serbiya zabitləri gəlmişdirlər.

**Klemanso ilə müsahibə**

Tittoni Klemanso ilə müsahibədə bulunmuşdur.

**Kral Albert Vaşinqtonda**

Əhali tərəfindən mütəntən [təntənəli] bir surətdə salamlanan Belçika kral çetası [cütlüyü] Vaşinqtona varid oldu [çatdı].

**Petroqrad altında**

General Yudeniç ordusunun yeni bolşevik qüvvəsinin vuruşmada iştirak etməsinə baxmayaraq, Petroqrad üzərinə yürüş başlanmışdır. Paytaxtın 20 kilometrliyində olan dəmiryol mövqiflərindən [stansiyalarından] bir neçəsi ağ qoşunlar tərəfindən işğal edilmişdir.

**SÜLH ƏTRAFINDA**

**Məclisi-Alidə**

Məclisi-Ali qərara almışdır ki, Baltik səvahili övzasını məmul bir təriq ilə [Baltik sahillərindəki vəziyyəti arzuedilən bir yolla] nizama yetirmək üçün tədabiri-fövqəladə ittixazı [fövqəladə tədbirlər görülməsi] qarşısında da təəmmül edilməsin [çox götür-qoy edilməsin]. Baltik səvahilinin Almaniya əsakiri tərəfindən təxliyə edilməsi üçün qəti tədabirə girişməsini Almaniya hökumətindən tələb etmək dəxi təhti-qərara alınmışdır.

**Sen-Jermen müahidənaməsi**

Bazel - Vyanadan xəbər verirlər ki, Reyx Cümhuriyyəti Sen-Jermen müahidənaməsini imza etmişdir.

**Vilson**

Vaşinqton - Vilson tədricən kəsbiafiyət etmək [sağalmaq] üzrədir.

**Almaniyanın borcu**

Sürix - Berlindən xəbər verirlər ki,

Almaniyanın cəmi borcları kanuni-əvvəlin [dekabrın] 31-əcən 90 milyard rublə qədər bir yekun təşkil edirdi. Bu ilin borcu 82 milyard rublə olmuşdur.

**Rusiya və Türkiyə məsələsi**

"Slovo" qəzetəsində yazılan bir xəbərə görə, Parisdə olan Rusiya heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Rusiyanın Şərq hüququna (?) aid Sülh Konfransına bir müxtirə [nota] təqdim etmişdir. Müxtirədə rus heyəti-mürəxxəsəsi şu prinsipi irəli sürür ki, yeni nəsəq [nizam; qayda] və intizam bərpa edilərkən, Rusiyaya da "Düvəli-müəzzəmə və müttəfiqə [Böyük və Müttəfiq dövlətlərlə] ilə bir nəzərdə baxılmalıdır". Xüsusən boğazları kontrol etmək Rusiya üçün həyati müqtəziyyatdan [zərurətlərdən] olaraq qalır. Məsələ adilanə (?) həll edilərək, boğazları idarə etmək üçün Cəmiyyəti-Əqvam namından Rusiyaya mandat verilməlidir. Müvəqqəti olaraq boğazların beynəlmiləl bir idarə altında olmasına Rusiya razı ola bilər. İstanbula gəldikdə isə, orada beynəlmiləl bir idarə olması mümkündür, ancaq Rusiyaya layiqli bir məqam verilməlidir. Sonra müxtirədə tələb edilir ki, Ermənistan istiqlalı təmin edilsin və sonra Türkiyə dövləti vergilərinə (?) müqəddəs yerlər məsələsinə keçərək denilir ki, o yerlərin müqəddəratı ilə katolik kilsəsi qədər proavoslavnı kilsəsi də əlaqədardır.

**General Nissel**

Lion - Versay müahidənaməsi şəraitinin [sazişi şərtlərinin] Baltik səvahilində [sahillərində] ifa edilməsini kontrol etmək üçün general Nissel təyin edilmişdir.

**Fransa**

Sülh müahidənaməsinin imza edilməsinə görə, rəisi-cümhur mühasireyi-əsgəriyyə və sansor [senzura] idarələrinin ilğası [ləğvi] və qeyri məşrutə [konstitusiya] qanunları təminatının bərpa edilməsi xüsusunda dekret vermişdir.

**Məclisi-Ali və Rusiya işləri**

Məclisi-Ali Versayda olan Beynəlmüttəfiqin [Müttəfiqlərarası] Hərbi Şuranın beynəlmiləl bir komisyon təşkil etmək xüsusunda olan layihəsini təsdiq etmişdir. Məzkur [deyilən] komisyon Berlində oturaraq, rus əsirlərinin Almaniyadan övdət etməsinə [qayıtmasına] nəzarət edəcəkdir.

**Sülh müahidənaməsi haqqında Burjuanın nitqi**

Fransa Məclisi-Əyanında [Senatında] sülh müahidənaməsi [sazişi] haqqında məruzə sifəti ilə bəyanat verən Leon Burjua söyləmişdir ki:

*"Sülh müahidənaməsini imza etdikdən sonra Düvəli-müttəfiqə [Müttəfiq dövlətlər] qarşısında yeni bir müahidənamə əqdi [saziş imzalanması] durur ki, o da bütün siyasi və iqtisadi məsələlərdə Müttəfiqlər arasında etilaf [uzlaşma, razılıq] yapmaq üçün lazımdır."*

Məruzəçi sonra Yaxın Şərq məsələlərinə keçmiş və söyləmişdir ki:

*"Bu məsələlər şimdilikdə həll edilə bilməyəcəkdir. Zira, Bolqariya sülh müahidənaməsi imza edilməmiş və Türkiyə müahidənaməsi isə hələ tərtib edilməmişdir."*

L. Burjua nitqinin axırında söyləmişdir ki:

*"İstanbul məsələsində bütün Yaxın Şərq müamması yatmışdır. Məsələ müzakirə edilməmişdir və biz də onun haqqında müzakiratımızı təviq etməliyiz [sonraya saxlamalıyıq].*

**QƏZETƏLƏRDƏN**

**Amerika və Ermənistan**

General Harbord [missiyası] əzasından [üzvlərindən] biri bəyan etmişdir ki:

*"Rəisi-cümhur Vilsonun binagüzarlığı [tapşırığı] ilə biz, Türkiyə və Qafqaziya övzasını [vəziyyətini] təhqiq və tədqiq etmək üçün əzimət etmişdik [getmişdik]. Rəisi-cümhur oralardan doğru bir məlumat bilmək istəyir.*

*Amerika Məclisi-Əyanı [Senatı] general Harbordun bəyanatına müstənidən [əsaslanaraq] Ermənistan haqqında qərar qəbul edəcəkdir. Ermənistanın qanun, idarə, maarif və maliyyə işlərindən; ordu, əhali qismi, müxabirat [rabitə] vasitəsi, hifzissihhə [sağlamlıq] və siyasi məsələlərindən məlumat toplayıb, heyətimiz Ermənistan sərmayədarlarının Ermənistana köçmək məsələsi ilə də maraqlanmışdır. Ermənistan Cümhuriyyəti hökuməti cavab vermişdir ki, 170 erməni sərmayədar və mütəxəssisləri Ermənistana köçməyi arzu etmişlərdir. Ermənistanda asayiş və nizam bərpa edilərkən, onlar köçəcəklərdir. O adamların siyahısı general Harborda təqdim edilmişdir."*

**Qızıl xan dəstəsi**

Mavərayi-Bəhri-Xəzər cəbhəsində bolşeviklər kəndi komandaları altına Mərv ətrafında məşhur olan quldur Qızıl xan dəstəsini qəbul etmişlərdir.

**Donanma manevrası**

Cəmahiri-Müttəfiqə Bəhri-Mühiti-Kəbir donanması [Birləşmiş Ştatların Sakit okean donanması] böyük manevra yapmaq üçün dənizə çıxmışdır. Manevra Bəhri-Mühiti-Kəbirdə icra ediləcəkdir. Manevra bitdikdən sonra donanma Vladivostok rixtiminə [dokuna] daxil olacaqdır.

**Yasnaya Polyananın müqəddəratı**

"Tayms" xəbər verir ki, bolşeviklər Yasnaya Polyananı milliləşdirmişlərdir. Keçən sənə talan edilmiş Yasnaya Polyananın baş imarətini təmir etmək üçün Lunaçarski 175 min rublə təxsis etmişdir [ayırmışdır]. Bolşeviklər Tolstoyun ailəsinə təklif etmişlərdir ki, Yasnaya Polyanada qalmaq arzu edirlərsə, o zaman Yasnaya Polyananın müdiri sifəti ilə onlar xidmət etməyi qəbul etmək şərti ilə qala bilərlər. Tolstoy ailəsinin bütün əfradı [fərdləri] bu təklifdən imtina etmişlərdir.

**Küleytdə**

"Araç" qəzetəsinin əxbaratına [xəbərlərinə] nəzərinə, Ədəndə olan türk milli təşkilatlarının nümayəndələri oradakı Fransa ali məmurlarından tələb etmişlərdir ki, 4 günədək Küleyti təxliyə etsinlər. Bu tələbdən dolayı Ədəndə bulunan türk vali vəkili və türk jandarmaları zabitanı Küleyt hüdudundan təbid [sürgün] edilmişlər imiş.

**Türk mühacirləri**

Yenə "Araç" yazır:

*"Ermənistanda yaşamaq istəməyən müsəlmanları türk məmurları Sivas vilayətinə göndərirlər. Əvvəlcə əsgərliyə yarayanları orduya göndərirlərmiş. Şimdi isə bu qərar da təbdil edilmişdir [dəyişdirilmişdir]."*

**Təbrizdə həyəcan**

"Aşxatavor" xəbər verir ki, Təbrizdə ingilislərə qarşı nümayişlər icra edilmişdir. Nümayiş başında şahsevənlər və qəribələr durmuş imiş. Hökumət sabiq nazirlərin həpsini həbs etmiş və Təbriz general-qubernatoru Sipəhsaları Tehrana sürgün etmişdir. Müsəlləh müsadimə vüqu bulmamışdır [Silahlı toqquşma olmamışdır]. Təbriz-Ərdəbil-Astara yollarını mühafizət etmək üçün hökumət qoşun göndərmişdir. Bu saat isə hər tərəfdə sakitlikdir.

## CÜMƏ GÜNKÜ MÜXTƏLİF XƏBƏRLƏR

**Qahirədə həyəcan**

Nauen - Qahirədə olan şöməndöfər [dəmiryolu] xidmətçiləri içində şiddətli həyəcan qalxmışdır. Xidmətçilər ümumi tətil elan edəcəkləri üçün təhtidatda bulunurlar.

**Hindustanda inqilab hərəkatı**

Xursi - Qahirədən xəbər verirlər ki, Hindistanın hər tərəfində İngiltərəyə qarşı böyük inqilab hərəkətləri başlanmışdır.

**Amerikada tətil**

Xursi - Bütün Amerika tətil hərəkatına qapılmışdır.

**Gizli etilaflar**

Lion - Mövsuq [etibarlı] mənbələrdən xəbər verirlər ki, dövlətlərdən bəziləri arasında bu yaxın günlərdə gizli etilaflar əqd edilmişdir [sazişlər bağlanmışdır]. İngiltərə Beynənnəhreyndə [İkiçayarasında] nə mümkün olarsa ələ gətirmək üçün səy edəcək, İtaliya Cənubi Anadolunun bir hissəsini işğal edəcək, Fransa isə Suriyanı işğal ilə İstanbulu da İngiltərə əlindən almağa cəhd edəcəkmiş.

**Fiume məsələsi**

Hersoq Aostski və general Qrazioli başda olaraq bir heyəti-məxsusə Romadan Parisə əzimət etmişdir [yola düşmüşdür]. Heyətin məqsədi-ümdəsi Fiume məsələsini tənzim etməkdir.

**Rennerin istefası**

Vyanadan işar edilən əxbarata [verilən xəbərlərə] nəzərən, Rennerin və onun kabinəsinin istefa edəcəyi şayiələri şiddətlə dövran etməkdədir.

**Kalmık çöllərində**

Ağlar çəkiləndən sonra kalmık obalarının hər tərəfində təxribat əsərləri zühura çıxmışdır. Əhali talan edilib, atları və heyvanları aparılmışdır. Şura müəssisələri məhv edilmişdir. Əhali içində Şura hökumətinə qarşı hüsn-təvəccöh [rəğbət] artmağa başlamışdır. Çapqın qəsdi ilə çeçen haydudları [quldurları] çölləri dolaşırlar. Müsəlləh [silahlı] kalmıklar haydudları dəf edirlər.

**Vyanada aclıq**

Kopenhaq - Vyanadan teleqraf edirlər ki, orada bərk aclıq vardır.





**Moskva Şurasında**

28 təşrini-əvvəldə [oktyabrda] Moskva Şurası iclasında Hərbi Şura üzvü Qusev cəbhələr övzası [vəziyyəti] haqqında bəyanat verdikdə söyləmişdir ki:

*"Vətəndaş müharibəsi bitmək üzrə olduğunu isbat edən bir çox əlamətlər vardır. Köylülər və xırda burjuazlar Şura hökuməti tərəfini iltizam edirlər.*

*Ağqvardiyalıların inşa etmək istədikləri bina yıxılmaq üzrədir. Denikini büsbütün münhəzim [darmadağın] etmək üçün ona bir zərbə daha endirmək kifayət edər. Denikin imkanı daxilində olan bütün qüvvəsini toplamış və hər bir vasitəyə müraciət etmişdir. Bizim əhvalımız ondan qat-qat fövqdür [üstündür]. Ordumuzu doldurmaq üçün bir qaç illər adamımız yetişər.*

*Biz qüvvələrimizi toplayıb Denikinə öylə şiddətli zərbələr endirmişik ki, o bir daha kəndisini düzəltməyi bacarmayacaqdır. Biz, bütün cəbhələrdə hücuma keçmişik. İngilislər şimali cəbhədən getmişlər və bu yaxın günlərdə Arxangelsk tərəfimizdən işğal edilər. Biz Petroqrad cəbhəsində istehkamlar yapmışıq. Yəqin demək olar ki, bir ay sonra Yudeniç qüvvələri darmadağın ediləcəkdir. Voronej cəhətdə düşmənin cəbhəsi açılmış və müarizimizin [rəqibimizin] əhvalı ümidsizdir."*

Bəyanatının xülasəsində Qusev qeyd etmişdir ki:

*"Bizim siyasi, səfərbərlik və təchizat işlərimiz tənzim edilmişdir. Biz qüvvələrimizi o qədər artırmışıq ki, qələbəmizin təmin olunduğunu qətiyyən söyləyə biləriz. Bizim ləvazimatımız bol olduğu kimi, səbatımız da yəqinən ki, artıqdır. Binaənileyh [ona görə], biz qalib gələcəyiz və qələbəmiz də bu yaxında olacaqdır."*

Sonra Qusev Denikin ordusu arxasında olan üsyan hərəkətləri barəsində və Qırmızı ordu tərəfindən zəbt və işğal edilən şəhərlər, köylər və strateji mövqelər xüsusunda məlumat vermişdir.

**Petroqrad cəbhəsində**

Bolşevik teleqrafnamələrində xəbər verilir ki, Petroqrad yaxınlığından Yudeniç ordusunu tərd etmək [qovmaq] yolunda hərbi əməliyyatımızın birinci hissəsi bitmək üzrədir. Bütün şimal-qərb cəbhəsini məhv etmək niyyəti ilə mübarizə ikinci hissəyə daxil olur.

**Estoniya və Petroqrad cəbhəsi**

Estoniya ordusu Baş komandanı qəzetə müxabirlərinə bəyan etmişdir ki:

*"Bolşeviklər Petroqrad cəbhəsində kömək almışlardır. Orada şiddətli müharibələr gedir. Bolşevik qoşunları gözəl müləbbəs [geyinmiş] və müntəzəmdirlər. Estoniyanın Yudeniçə müavinət etməsinə gəldikdə isə, bu məsələdə ciddi mümaniətlər [manelər] vardır. Yudeniç, Kolçak və Denikin Estoniya istiqlalını tanımaq istəməyirlər. Bolşeviklər isə Estoniyada nəşr etdikləri intibahnamələrində [vərəqələrində] Estoniya istiqlalını tanıdıqlarını məlum edirlər. Ola bilərmi ki, Estoniya istiqlalını tanımayan Yudeniçə estonlar müavinətdə bulunub, istiqlallarını tanıyan bolşeviklərə qarşı mübarizə etsinlər."*

**Şura hava donanması**

Qırmızı ordunun 360 təyyarəsi vardır. Təyyarələri cəbhələrə çox buraxmaya-

raq, mühüm zamanlar üçün Moskvada və başqa Şura mərkəzlərində saxlayırlar. Moskva təyyarələri uçmaq üçün daima hazır bulunurlar. Təyyarələr Trotski idarəsi altındadırlar.

**Lodz fabrikaları**

Alman qəzetələrinin verdiyi xəbərə görə, Lodzun bütün böyük mövcud fabrikaları ingilislər əlinə keçmişdir.

**İstanbulda rus müəssisələri**

"K. V." xəbər verir: İstanbulda bulunan rus müəssisələrindən bu saat fəaliyyətdə bulunanları aşağıda yazılanlardır:

1) Rus işləri müdiri;

2) General Denikin nümayəndəsi;

3) Rus dəniz üssül-hərəkəsi [bazası].

Dəniz üssül-hərəkəsinin fəaliyyəti müvəfəqqiyyətlə tövsi edir [genişlənir]. Əcnəbilər əlində olan gəmilərin külli miqdarı rus bayrağı altına qaytarılmışdır.

**Qorxu**

Nauen - Paris sol sosialistlərinin naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan "Populyar" Sülh Konfransı ilə təmasda olan əşxasın [şəxslərin] söyləməsi ilə xəbər verir ki, general Yudeniçin Baltik səvahilini [sahillərini] tərk etməyə məcbur olacağından Sülh Konfransı dairələrində qorxmadadırlar.

**Riqa bombardman edilir**

Lion - Kopenhaqdan xəbər verirlər ki, almanlar Riqanı bombardman etmədə davam edir. Protestan, katolik və pravoslavnı kilsələrin nümayəndələri buraxmış olduğu müraciətnamələrlə qadın və çocuqların ölümünə bais olan bombardmana qarşı protesto izhar etmişlərdir.

## ƏMNİYYƏT SANDIQÇALARININ ƏHALİYƏ FAYDALARI

Bir çox imarətlərin xarabalarında basdırılmış dəfinələrə bəzən təsadüf olunur ki, sahibləri qədim əyyamda oğru və quldur qorxusundan nəqdiyyə [pul] və qiymətli şeylərini torpaqlar arasında gizlətmişlər. Bu növ hallar öylə məmləkətlərə müxtəsdir [məxsusdur, aiddir] ki, orada əmin-amanlıq olmadığı cəhətə, əhalisi var-yoxunu özüllərdə, divar çatlaqlarında, quyularda, xülasə, ağla gəlməyən yerlərdə basdırmışlar. Bu gün Türküstan, İran, Qafqaz kimi Şərq cəhətlərində əkinçilik xışına, asari-ətiqə [qədim əsərlər] axtaran şəxslərin bel və külünglərinə ilişib, min illərcə torpaqda yatan şeylərdən bəziləri dünya işığını görür. Lakin bu dəfinələrin sahibləri çoxdan ölüb tələf olmuşlar. Bunu görən və eşidən öylə zənn etməsin ki, qədim kişilər mallarını gizlin yerlərə atıb övladına vermək istəməmişlər. Bəlkə, məhz övladının mənfəəti üçün bunu yapmışlar. Amma çifayda, sonraları bu mallar nə özlərinə, nə də varislərinə qismət olmuşdur. Yəni dünyada əbəs yerə çalışmışlar.

Qədim kişilərin mallarını, əzancümlə [o cümlədən] qızıl, gümüş pulları və cəvahiratı gizlətməyə iki şey bais olmuşdur:

1) Qoluzorlu və müstəbid hakimlər ilə oğruların qorxusundan ki, hər kəsdə beş şahı pul müşahidə edilən kimi zorlayıb əlindən alırdılar. Odur ki, varlılar pullarını gizlətməklə bərabər, hər yerdə qövlən və feilən [sözdə və işdə] özlərini yoxsullar zümrəsinə daxil edirdilər.

[2)] Müharibə və qəhətlik kimi şeylərin nəticəsi olaraq qaçqınlıq səbəbi ilə əhali mallarını naməlum yerlərdə, yeni yurdlara qaçarkən köhnə yurdlarda gizlədirmişlər ki, təcavüzkar düşmənin əlinə düşməsin.

Mal gizlədənlər hankı səbəblə olursaolsun, malın miqdarını və onun məkanını heç kəsə bildirməzdilər. Hətta malını gizlədərkən ata oğluna, qızına, arvadına da belə yerini bildirməyib sirr verməzmiş ki, məbada, əhvalatdan qonşu və qohum xəbərdar olsun. Təbii ki, bu qədər məxfi görülən işi qövm və əqrəbadan gizlətmək üçün qaranlıq gecələrdə ala-yarımçıq və çox tələsik bir hal ilə yapardılar ki, heç kəsin bu işdən ittilaatı [xəbəri] olmasın. Bunun üçündür ki, bu qədər sürətlə gizlədilmiş malları bir neçə vaxtdan sonra sahibləri kəşf edəmməyirdilər. Ələlxüsus heç bir nişanə və əlamət buraxmayan qumsal yerlərdə böylə basdırılmış şeyləri kəşf etmək çox çətin bir məsələdir ki, sahibləri hərçi [hər nə qədər] axtarırdılar, ətrafı oyum-oyum edirdilər, basdırılmış maldan ələ bir şey gəlmirdi. Sanki burada əvvəldən heç bir şey basdırılmamışdır. Halbuki malı heç kəs yerindən dəbərməmiş, ancaq onun mövqeyi və səmti unudulduğu cəhətə, tapılmağı da müşkül olur. Hamıdan çox bu bəla bizim köçərilərin başına gəlir: mal-qaraları ilə arandan dağa köçərkən bir çox şeylərini torpağa basdırıb gedirlər, yaylaqdan qayıdarkən dəfinələrinin kəşfinə bəzən aciz qalırlar, bəzən də buraxılmış zahiri əlamətlərin isbatı ilə bu şeylər, sahiblərinin dağlarda olan zamanı, oğru və çapqınçılara qismət olur.

Bolşeviklərin Bakı təcavüzatı əsnasında Abşeron kəndliləri də şeylərini yerə basdırıb qaçmışlar ki, bu biçarələrin batıq və itikləri milyonları keçmişdir desəm, səhv etməmişəm, zənnindəyəm. Həmçinin İrəvan və Zəngəzur qaçqınları da bu bəladan az xəsarət görməmişlərdir.

Qaçqınlıq zamanı deyil, asayiş günlərində də malı torpağa basdırmaq sahibinə fayda verməmişdir: bəzən divar çatlağında məhfuz [qorunan] pulları siçanlar dəlməyinə çəkib aparmışlar, bəzən də pulu gizlədən şəxs varislərini işdən xəbərdar edincə rəhlət etmişdir [dünyadan köçmüşdür], pullar torpaq altında qalıb heç kəsə qismət olmamışdır. Bəlkə kişinin rəhlətindən sonra varisləri evi, mülkü özgəyə sataraq işdən xəbərsizcə dam-daşlar arasında gizli pulu da mülk alana əta etmişlər!

Xülasə, torpaqlar arasında gizlədilmiş pulların səmərəsi çox acıdır. Ələlxüsus bugünkü kağız pulların qorxusu daha çoxdur, zira rütubət yerdə bir müddət qalarsa, çürüyüb tələf olması ehtimalı da az deyil.

Artıq pulu divarlar çatlağında, buxarı bacalarında gizlətmək adəti bizə babalarımızdan adət qalmışdır. Bu adətə babalarımız o vaxtlar qurşanmışdılar ki, məmləkətin ədalətinə əmin ola bilməzdilər, hərc-mərclik, dərəbəylik, qoluzorluluq ətrafı çulğalamışdı. Həm də məmləkətin öylə bir idarəsi yox idi ki, əhalinin qəpikquruşları orada məhfuz ediləydi.

Bu gün hökumətin tədbiri ilə Azərbaycanın şəhər və qəsəbələrində "əmniyyət sandıqçaları" [əmanət kassaları] təsis edilmişdir ki, hər kəsin qənaət-

karlığından beş manat, on manat artıq qalarsa, aparıb oraya təhvil versin. Buna camaatımız alışarsa, ən böyük faydalara nail olacaqdır.

1) Heç kəsin bir qara qəpiyi itib-batmayacaqdır. Bu pulların iadəsi [qaytarılması] dövlətin tamam varidatı ilə təmin edilir.

2) Hər kəs qənaətkarlığa adətlənib qara gün üçün bir qədər məbləğ toplamağa var qüvvəsi ilə çalışar. Bunun hamıdan çox füqəra və əhli-kəsəbə üçün faydası vardır.

3) Pul sahibi rəhlət edərsə, cəmlədiyi pulun hamısı qanunən varislərinə çatacaqdır.

4) Pulun əslindən maəda [başqa] filan qədər ildə faizi də veriləcəkdir.

5) Əmniyyət sandıqlarına yığılan pulları hökumət dəmiryol kimi faydalı təsisata xərcləyəcəkdir ki, mənfəəti yenə əhaliyədir.

Hökumətin xəzinədə pulu azaldıqca, yeni pullar kəsilməyə çalışacaqdır ki, bu da bahalığın artmasına böyük bir səbəb olar. Əhalinin nə qədər xəzinədə məhfuz pulu olsa, bir o qədər yeni pul kəsməyə ehtiyac görünməz. Yəni müruri-zamanla [vaxt ötdükcə] ucuzluq hasil olar. İştə o ucuzluğu arzu edən kəsbkarlar, artıq pulunuzu “əmniyyət sandıqçalarına” verin ki, bu həm ziyarət və həm də ticarətdir.

*Fərhad Ağazadə*

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Daxiliyyə Nəzarəti tərəfindən dairə zemski vergiləri, dairə smetaları və dairə vergi yığanları haqqında bir qanun layihəsi tərtib verilib, Vükəla Şurasına [Nazirlər Kabinetinə] təqdim ediləcəkdir.

- Daxiliyyə Nəzarəti tərəfindən Azərbaycan Cümhuriyyəti zemstvo qlasnıları intixabı [yerli özünüidarə orqanları üzvlərinin seçkisi] haqqındakı tənbihat [əmrnamə] tərtib edilib itmam edilmişdir [tamamlanmışdır]. İşbu tənbihat, dairə və qəza zemstvo qlasnıları intixabatı qanunlarını havidir [əhatə edir].

- Daxiliyyə Nəzarəti təcili surətdə şəhər vergiləri qanun layihəsini hazırlamaqdadır.

- Qubernator Quba şəhər idarəsinin su yolu təmiri üçün 1 milyon manat buraxılması haqqındakı təşəbbüsatını havi [əhatə edən] təliqəni [rəsmi məktubu] Daxiliyyə Nəzarətinə göndərmişdir. Su “Hacı Ələkbər bulağı” deyilən yerdən gətiriləcəkdir ki, Quba şəhərinin 8 verstliyində vaqedir.

- Daxiliyyə Nəzarəti, bələdiyyə idarəsinin traktir [ictimai iaşə obyekti] vergisi təyini vaxtının 20 təşrini-saniyədək [noyabradək] təxir edilməsi haqqında Vükəla Şurası nəzdində təşəbbüsatda bulunacaqdır.

- Bakı və Gəncə şəhərləri bələdiyyə idarələri Daxiliyyə Nəzarətinə müraciətlə, Məclisi-Məbusan tərəfindən qəbul edilmiş qanun layihəsi üzrə pud vergisi toplamağa icazə istəmişlərdir.

- Maarif Nəzarəti tərəfindən Bakıda 4 sinifli ünas [qızlar] sənaye məktəbi güşadı [açılması] haqqında bir qanun layihəsi tərtib verilib, təsvib edilib [bəyənilib], Vükəla Şurasına idxal edilir. Məktəbin təşkil və məsarifatı üçün bir sənəlik 39,783 manatlıq bir məbləğ istənilmişdir.





- Maliyyə Nəzarəti Bakı və qəzalarda olan bütün xüsusi banklara məlum etmişdir ki, bu sənənin kanuni-sani [yanvar] birindən baqi qalmış hesabati-cariyyə ilə bərvəchi-ati [aşağıdakı] qərar üzrə müamilatda bulunmalıdır:

Bu sənənin birindən baqi qalmış hesabati-cariyyələr üzrə beş mindən fəzlə olmazsa, birinci tələb üzrə pul verilməlidir.

Beş mindən fəzlə olduğu təqdirdə, işbu sənənin təşrini-əvvəl [dekabr] birindən etibarən bu qərar üzrə verilməlidir: birdəfəlik 5,000 manat; sonra birinci əlbaqinin [qalığın] 20 faizi (5,000 manat bura çıxılmalıdır).

## BAKI XƏBƏRLƏRİ

**Portda**

İşbu təşrini-əvvəlin 28-də axşam zamanı Nobel qardaşlarının “Talmud” nam vaporu Bakıya varid olmuşdur [gəlmişdir]. Vapor “Minin” nam gəmini də yedəyində gətirmişdir.

Vapor təşrini-əvvəlin 24-də yüngül ruzigar olduğu halda Petrovskdan [Mahaçqaladan] çıxmışdır. Yanacağı 60 saat kifayət edəcəkdi. O birigün ruzigar şiddətləndiyindən və yanacaq qurtardığından, “Talmud” 45 dərəcə gəzə girib ləngərəndaz olmaq [lövbər salmaq] istəmişsə də, “Minin” gəmisindən bədbəxt hadisə əlaməti verilmişdir – gəminin anbarına su dolmağa başlamışdır. Vaporlar Beşbarmaq denilən yerdə durmuşlardı. Təşrini-əvvəlin 27-də ruzigar yüngülləşdiyindən, vaporlar yelkən vasitəsilə salamat Bakıya varid olmuşlardır.

**Volqaboyu müsəlmanları**

Cümə məscidi tikilməsi ilə iştiğal edən [məşğul olan] Maliyyə Komitəsi Volqaboyu müsəlmanlarına, cümə namazının müvəqqətən Balaxanski və Maqazinni küçələrin küncündə mövcud yerdə qılınacağını bildirir.

**Sinematoqrafdan**

Cümə günü təşrini-əvvəlin 31-də iranlıların maarif cəmiyyəti “Tərəqqi”, satılan biletlər ücrətinin nisfi [yarısı] cəmiyyətə verilmək şərti ilə Olqinski küçədə “Ekspress” teatrosunda tamaşa göstərirdi. Cümlətan biletlərdən 14,155 (on dörd min bir yüz əlli beş) manat mədaxil olmuşdu. Bu məbləğin 4,160 manatı hökumət və bələdiyyə idarəsi vergisinə getdikdə, 9,995 manat təmiz mədaxil aid olmuşdur. Əlli faizi cəmiyyətin olaraq, bu məbləğdən 5,000 (beş min) manat cəmiyyətin sandığına varid [daxil] olmuşdur. Bundan əlavə, kassada qalan 55 manat artıq paranı da teatro müdiriyyəti “Tərəqqi” cəmiyyətinə vermişdir. Bu hesabla biletlər satışından 5,055 manat hasil olmuşdur. Biletlərdən hasil olan paralardan başqa, cəmiyyətə də bir çox ianə verilmişdir. Bunun da surəti gələcək nömrələrdə dərc ediləcəkdir.

## BİRJADA

Kerenski minlik 900-1,070 manata qədər, 250-lik faizsiz və xırda kəndi qiymətindən 10 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 900-1,750 manata qədər, yüzlüyü 230-400 manata qədər və xırdası isə 50-80 faizə qədərdir.

Türkiyə kağız lirəsi 220 manat və Zaqafqaz bonu min manata 15 manat fəzlədir.

Türkiyə altun lirəsi 940 manat, altun onluq 1,000 manat, imperial 750 manat və Avstriya altunu 2,250 manatdır.

Gümüş manat 80 manat və xırda gümüş para 30 manatdır.

Susinin topu 1,000 manata gedir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### Cəmiyyəti-Xeyriyyədə

**Mütəallimə ianə**

Sədi Əfəndizadə nam [adlı] bir nəfər mütəallimə [şagirdə] tədrisdə davam etməsi üçün Cəmiyyəti-Xeyriyyədən 500 manat ianə verilmişdir.

**Qaçqın qız**

Bakı Cəmiyyəti-Xeyriyyəsi təhtində [himayəsində] olan qaçqınlardan Zəhrabəyim Məhəmməd qızı namı, Məşhədi Yəhya Məhəmmədnəbi oğlu saxlamaq üçün götürmüşdür.

**Zəngəzur qaçqınları**

Təşrini-əvvəlin [oktyabrın] 29-da Bakıya 55 nəfər Zəngəzur qaçqını varid olmuşdur [gəlmişdir]. Cəmiyyəti-Xeyriyyə bunlardan 37 nəfəri çocuq olduğuna görə yetimlər yurduna, 8 nəfəri Şah məscidinə və 12 nəfər xəstəni də xəstəxanaya göndərmişdir.

**Türk əsirləri**

İki gün əqdəm [qabaq] Bakıya 28 nəfər türk əsiri vürud edib [gəlib], Cəmiyyəti-Xeyriyyə bunları Bayılovda yerləşdirmişdir.

**Zəngəzurlı yetim bir qız**

Zəngəzurdan varid olan [gələn] qaçqınların miyanında [arasında] valideyni ermənilər tərəfindən qətl edilmiş Məhliqa Rəsul qızı nam 8 yaşında bir qız vardı. Bu qızın Bayılovda ikinci uçastokda xidmət edən Hümmət Rəsul oğlu nam bir cavan polis öz qız qardaşı olduğunu tanımışdır. Binaənileyh [ona görə], bir ərizə verib həmşirəsi [bacısı] Məhliqanı götürmüşdür.

**Qars qaçqınları**

Cümə günü təşrini-əvvəlin 31-də Qars nahiyəsindən 60 nəfər qaçqın Bakıya varid olmuşdur. Bunlar bir gecə istasyonda qaldıqdan sonra Cəmiyəti-Xeyriyyə himayəsinə götürülmüşdür.

**İrəvanlıların diqqətinə**

Bazar günü axşam saat 6-da noyabr ayının 2-də "Müsavat" firqəsi bulunduğu əski Dum meydanında (Dumski ploşadda) Haşımovun mülkündə İrəvan qubernіyası müsəlmanlarının ümumi iclası vaqe olacaqdır.

Ümumi iclasda irəvanlılara dair mühüm və lazımlı məsələlər həll olunmağına görə, irəvanlıların mümkün olduqca çox gəlmələri rica olunur.

## AZƏRBAYCANDA

**Gəncədə**

Gəncədə Kəndçi və Əkinçi İttifaqı təşkil olunduğu qəzetə oxuyanlar nəzərinə çarpmışdır, zənnindəyiz. İttifaqın Mərkəzi Komitəsi Gəncə şəhərində təsis edilmişdir və məqsədi bütün vilayətdəki zəhmətkeş əhalinin haqqını müdafiə etmək və mümkün mərtəbə onların rahat yaşamasına çalışmaq olacaqdır.

İttifaqımızın qüvvətlənməsi və təqib edəcəyi yolda yorulmaqsızın çalışması üçün Gəncə vilayətinin Şuşa, Cəbrayıl, Cavanşir, Şəki və qeyri qəzalarında da birər Kəndçi və Əkinçi İttifaqı təşkil və Mərkəzi İttifaqın şöbəsi sifəti ilə fəaliyyətə başlamalarını arzu və təmənna edirdik. Məlumat vermək istənilsə, Gəncədə Kəndçi və Əkinçi İttifaqının Mərkəzi Komitəsi adresinə müraciət ed[il]ə bilər.

## GÜRCÜSTAN XƏBƏRLƏRİ

**Bakı üçün qənd**

Srağagün Batumdan Bakıya Azərbaycan hökuməti adına 25 min pud qənd göndərilmişdir.

**Mühəndis Qasımbəyovun qətlinə dair**

Gürcüstanda olan Azərbaycan Cümhuriyyəti diplomasi nümayəndəsi vəzifəsini ifa edən [Faris bəy] Vəkilov Gürcüstan Xariciyyə İşləri nazirinə böylə bir müraciətdə bulunmuşdur:

*"Aldığım məlumata görə, bu gün səhər Puşkin caddəsində [küçəsində], böyük müsəlman camaat xadimlərindənədd [hesab] edilən mühəndis Xəlil bəy Qasımbəyov qətl edilmişdir. Böylə qətl camaat əfkarını [ictimaiyyəti] həyəcan və qələyana gətirdiyi üçün qətl səbəbini və qatilin kim olduğu məlum edilmək üçün sizdən asılı olan ciddi tədabirin ittixaz edilməsini [tədbirlərin görülməsini] rica edirəm."*

**Kutais gömrükxanası**

Təşrini-əvvəlin 24-dən etibarən Kutaisdə gömrükxana açılmış və işə başlamışdır.

## ERMƏNİSTANDA

**Erməni qəzetələrindən**

"Aşxatavor" yazır:

"Eylülün 29-da Azərbaycan hökuməti telsiz teleqraf vasitəsilə bütün cahana müraciət edərək, Ermənistanda olan müsəlmanlar haqqında erməni hökuməti tərəfindən guya icra edilməkdə olan zülüm və təcavüzata qarşı protesto etmişdir. Bu fəqərə [fakt] erməni hökumətini məcbur etmişdir ki, Azərbaycan hökuməti müraciət etdiyi yerlərə həman qayda ilə o da müraciətdə bulunsun.

Ermənistan hökuməti kəndi cavabı ilə son beş-altı ay zərfində Azərbaycan və Türkiyə agentlərinin yapdığı intriqaları açmış və şu intriqalar nəticəsi olan Şərur, Naxçıvan müsəlmanlarının Ermənistan hökumətinə qarşı üsyan edərək, Naxçıvan ətrafında 10,000 erməni əhalisini kəsmələrini bildirmişdir.

Hal-hazırda isə (erməni telsiz teleqramında deyilir) Ermənistan müsəlmanları ayılmış və iğvaçılara [onları yoldan çıxaranlara] lənətxan olaraq [lənət oxuyaraq] erməni hökumətinə izhari-übudiyyət edirlər [tabe olduqlarını bildirirlər].

Bə'd [sonra] erməni hökuməti kəndi tərəfindən ermənilərin Nuxu, Ərəş [Ağ-

daş] və Şamaxı qəzalarında övzasını [vəziyyətlərini] təsvirlə, Qarabağda erməni köylərindən bəzisinin talan edilməsi və oranın – Qarabağın təhdidatla [hədələrlə] Azərbaycana tabe etdirilməsini və başqa hadisələri göstərir.

Cavabının axırında erməni hökuməti bəyan edir ki, o, şu hadisələri nəzərə almayaraq Azərbaycana müraciət etmiş və münaqişəli məsələləri sülh təriqi [yolu] ilə təsviyə [həll] etməyi təklif etmişdir. Və o (yəni Ermənistan hökuməti), bu dürlü telsiz teleqramları qonşular arasında münasibati-dostanə bərpa edilməsi üçün məqul [ağlabatan] bir vasitəədd [hesab] etməyir."

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*11449*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsamama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-





7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Diş həkimi**
**B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**İstanbul doktor və bakterioloqu**
**Nazim bəy Hüseynzadə**

Sifilis, terbier, şankr və daxiliyyə naxoşluqları, 914 və 606 müalicələri tətbiq edilir.

Qəbul olunur səhər saat 9-dan 10-adək, axşam saat 6-dan 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 17, doktor Qarabəyovun müalicəxanası. Telefon nömrə: 49-87.

*1470*

**Diş həkimi**
**S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Diş həkimi**
**A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Təbib Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres: Ofiserski küçədə (Nikolayevski küçənin küncündə) nömrə 6. Telefon 41-14.

*11430*

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Professor Buyneviçin**
**müsəkkər [sakitləşdirici] kabinetinin**
**sabiq assistenti**
**Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Diş müalicəxanası D. İ. Zeylidzon**

Xüsusi qızıl və platina işləri. Kötük və körpülər və farforlar. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur məhzən növbətə yazılmaqla səhərlər saat 9-dan 2-yədək, axşamlar saat 5-dən 7-yədək. Ünvan: Malakanski küçə, ev nömrə 1. Telefon nömrə 19-55.

*11442*

**Elan**

Heyəti-mütəşəbbisə [təşəbbüs qrupu] təklifi ilə yekşənbə [bazar] günü noyabr ayı-

nın 2-də axşam saat 6-da Dum meydanında Fəhlə Klubunun qarşısında olan “Müsavat” firqəsinin odasına əhvali-hazirəyə dair bir para mühüm məsələlərin müzakirəsi üçün İrəvan quberniyasının islam əhalisi dəvət olunur.

*14001*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarətləri tərəfindən verilən icazənamələrlə ixrac olunan neft və qeyri şeylərin əvəzində cürbəcür malların gətirilməsi üçün Nəzarətlərlə müqavilənamələr bağlayıb və bu müqavilənamələrə əməl etməyən zəvata [şəxslərə] Ticarət, Sənaye və Ərzaq Nəzarəti məlum edir:

1) Zəmanəti və girovu olan müqavilənamələrin əmələ gətirilməsi üçün möhlət almaqdan ötrü sahibləri həmin noyabr ayının 14-dən gec olmayaraq Nəzarət indində [nəzdində] istidada [xahişdə] bulunub və müqavilənamələrdə zikr olunan malların dəyişilməsi barəsində Nəzarətlə etilafa [razılığa] girməlidirlər.

2) Şərti cəriməli müqavilənamələrdən ötrü yuxarıda zikr olunan möhləti almaq və müqavilənamələrdə zikr olunan malların dəyişilməsi üçün sahibləri həmin noyabr ayının 14-dən gec olmayaraq müqavilənamələrdə göstərilən şərti cərimə qədəri girov və yainki zəmanət verməlidirlər.

Yuxarıda zikr olunanlara əməl etməyən zəvata müqavilənamələr mövcibincə [əsasında] iqameyi-dava (isk) veriləcəkdir [məhkəmə iddiası qaldırılacaqdır].

*İmza etdi nazir: [Ağa] Əminov,*
*müdir: [Abbasəli] Makinski*
*T-312*

**Elan**

Ticarət, Sənaye və Ərzaq Nəzarəti bununla ümum əhaliyə məlum edir ki, hökumətin həmin oktyabr ayının 13-də olan qərardadı mövcibincə [qərardadına əsasən], pambıq toxumlarının əcnəbi məmləkətlərə ixrac gömrüyü 3-10 manatacan artırılıb, geri və malların əvəzi olunmaq şərtlərindən azad edilməsi ilə bərabər, Nəzarətin xüsusi icazənamələri ilə bu malın ixracına müsaidə verilmişdir. Zikr olunan toxumların ixracı üçün icazənamə almaq arzusunda olan zəvat [şəxslər] həmin noyabr ayının 15-dək Ticarət, Sənaye və Ərzaq Nəzarətinə ərizə verməlidirlər.

*29 oktaybr 1919 sənə*
*Nazir: [Ağa] Əminov*
*Müdir: [Abbasəli bəy] Makinski*
*T-314*

***Müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**[Tarix]**

səh. 1. “Yekşənbə, 8 səfərül-müzəffər”: qəzetdə “yekşənbə” [bazar] yerinə səhvən “cümə” getmişdir.

**Elan**

səh. 2. “tuklar”: qəzetdə təhrif edilmişdir.

**Gürcüstandakı həvadis**

səh. 2. “rəsmi təbliğatından”: “Azərbaycan” qəzetinin 31 oktyabr 1919-cu il tarixli 310-cu sayında Gürcüstan Daxili İşlər naziri Noy Ramişvili imzası ilə yayımlanan rəsmi təbliğatda, Şura hökumətinin Gürcüstana Moskvadan agentlər göndərdiyi, bu agentlər vasitəsilə ölkədə iğtişaş yaratmağa və Gürcüstanla Azərbaycanı Denikinə qarşı müharibəyə sövq etməyə çalışdığı deyilirdi.

**Gürcüstanda**
**bolşevik ixtilalçıları**

səh. 5. “Muradı cümlənin birdir, bütün dünyanı söylətsən”: misra, XVI əsrin böyük türk şairi Baqinindir.

səh. 6. “Kimin yarası varsa, əlbəttə fəryad edər.” (farsca)

**Azərbaycan**
**Məclisi-Məbusanında**

səh. 8. “Füqəra sədası”: Bakıda 1919-cu ilin avqust ayında nəşr edilmiş qəzet. Redaktoru Əliheydər Qarayev idi.

**Teleqraf xəbərləri**

səh. 11. “Balaxoviç”: Stanislav və İosif Balaxoviç qardaşları hər ikisi çar ordusunda xidmət etmiş, sonra Qırmızı orduya qoşulmuş, sonra yenidən Ağ qvardiyaya keçmişdilər. Burada Balaxoviçlərdən hansından söz edildiyi məlum deyil.

səh. 12. “Mikado”: yapon imperatorunun titulu idi.

“Rambuyedə təntənəli bir seyd olmuşdur.”: Rambuye [Rambouillet], Parisə 45 km məsafədə yerləşən şəhərin adıdır; qəzetdə “Ramboli” kimi getmişdir. Bu şəhərin yaxınlığındakı meşə rəsmi ov ərazisi idi.

**Sülh ətrafında**

səh. 13. “Reyx Cümhuriyyəti”: söhbət Almaniya Avstriyasından gedir; qəzetdə “Reys Cümhuriyyəti” yazılmışdır.

səh. 14. “Rusiyanın Şərq hüququna (?) aid”: qəzetdə belədir.

“Məsələ adilanə (?) həll edilərək”: qəzetdə belədir.

“Türkiyə dövləti vergilərinə (?) müqəddəs yerlər məsələsinə”: qəzetdə belədir.

**Bakı xəbərləri**

səh. 21. “Balaxanski”: Bakıda, indiki Füzuli küçəsi.

“Maqazinni”: Bakıda, indiki Süleyman Rüstəm küçəsi.

“Olqinski”: Bakıda, indiki Məhəmməd Əmin Rəsulzadə küçəsi.

**Birjada**

səh. 22. “Susinin...”: bu sözə məna vermək mümkün olmadı.

**Firqələr və cəmiyyətlər**

səh. 22. “Ümumi iclasda irəvanlılara dair...”: qəzetdə “irəvanlılara” yerinə “iranlılara” getmişdir.



*“Azərbaycan” qəzetinin 312-ci nömrəsinin 1-ci səhifəsi*





**Bazar ertəsi, 3 noyabr 1919-cu il, nömrə 312**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 9 səfərül-müzəffər sənə 1338. 3 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Ticarət, Sənaye və Ərzaq nazirinin xüsusi əmrlər məmuru və baş müfəttişi Əbdülbaqi İsmayılzadə kamali-yəs və təhəssürlə [böyük bir kədər və həsrətlə] öz qövm-əqrəbasına və dost-aşnalarına öz əziz və sevgili qızı və ailəsi Yəminə xanım İsmayılzadənin həmin noyabr ayının 2-də vəfat etdiyini məlum edir. Mərhumələrin təşyeyi-cənazəsi [cənazələrinin yola salınması] düşənbə [bazar ertəsi] günü həmin noyabr ayının 3-də Məhəmmədyar küçəsi 101 nömrəli evindən Şah məscidinə aparılacaqdırlar.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

6-cı polis müfəttişliyinin müdiri Abutalıb Sadıqov və Məşhədibaba Sadıqov kamali-yəs və təhəssürlə öz yoldaşları Əbdülbaqi İsmayılzadənin sevgili qızı və ailəsi Yəminə xanım İsmayılzadənin həmin noyabr ayının 2-də vəfat etdiyini məlum edir. Mərhumələrin təşyeyi-cənazəsi düşənbə günü həmin noyabr ayının 3-də Məhəmmədyar küçəsi 101 nömrəli evindən Şah məscidinə aparılacaqdırlar.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyə nümayəndəsi Ağaməhəmməd İbrahimzadə, Mirzədavud Hüseynzadə, Əliəkbər bəy Topçubaşov və Heydər Balahəsənzadə kamali-yəs və təhəssürlə öz yoldaşları Əbdülbaqi İsmayılzadənin sevgili qızı və ailəsi Yəminə xanım İsmayılzadənin həmin noyabr ayının 2-də vəfat etdiyini məlum edir. Mərhumələrin təşyeyi-cənazəsi düşənbə günü həmin noyabr ayının 3-də Məhəmmədyar küçəsi 101 nömrəli evindən Şah məscidinə aparılacaqdırlar.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Zülfüqar Tanrıverdiyevin arvadı və oğlanları kamali-yəs və təhəssürlə, birincisinin əri və baqilərinin [qalanlarının] atası Zülfüqar Tanrıverdiyevin vəfat etdiyini kamali-hüzn və təhəssürlə öz qövm-əqrəbalarına və dost-aşnalarına xəbər verirlər. Təşyeyi-cənazə noyabrın 3-də səhər saat 10-da Karantinni küçədə 54 nömrəli evdən Təzəpir məscidinə aparılacaqdır.